## Yeni kitablar

# "Salatın Əhmədlinin bədii publisistikası"

*Ön söz əvəzi:*

**Dağ kəndindən tanıdığım imza**

Ulu Tanrı hər kəsə bir nemət bəxş edibdir. Mənim də qismətimə düşən Odlar Yurdu Azərbaycanımızın Naxçıvan ellərinin Şərur mahalının dağlar qoynunda yerləşən Axura kəndində dünyaya göz açmağımdır. Üç tərəfdən dağlarla əhatə olunmuş Axura kəndinin hər bucağında "Bir bala ceyranın gözündən duru" bulaqlar çağlayır, bağlarında xoş ətirli meyvələr, dağlarında min bir dərdin dərmanı olan nemətlər yetişir, çöllərində, çəmənlərində qəlboxşayan güllər, çiçəklər ətir saçır.

Bu kəndin ağsaqqal və ağbirçəklərinin sinəsi söz boğçası, oğul və qızlarının qəlbləri söz çələngidir. Bu kəndin söz qoşub, saz çalan aşıqları da var, gözəllikləri tərənnüm edən şairləri də, ədəbiyyat adamları da...

Mətbuata böyük maraq olub kəndimizdə. Keçən əsrin 60-80-ci illərində dərc olunan qəzet və jurnalların əksəriyyətinə abunəçi idi bu kəndin adamları. Biz məktəblilər də maraqla oxuyardıq bu qəzetləri. Məqalələrə, zarisovkalara, oçerk və reportajlara daha çox fikir verər, hər yazının müəllifini tanımağa çalışar, yazılar haqqında fikirlərimizi bölüşərdik. Hələ məktəb illərindən özümüz də kiçik həcmli məqalələr, hekayə və şeirlər yazar, qəzetlərdə dərc etdirərdik.

O illərdə daha çox diqqəti cəlb edən publisistik yazıları izləyərdik. Sevimli şairimiz Məmməd Arazın dağların sakini çobanların həyat tərzindən, şair-publisistlərdən Vaqif İbrahimin BAM-ın əmək adamlarının möcüzəli hünərlərindən, Səyavuş Sərxanlının Arpaçay dəryaçasının tikintisinin ecazkarlığından, Sirusun, Möhbəttin Səmədin sənətkar taleli ömürlərdən yazdıqları bədii publisistik yazıları dağ kəndində acgözlüklə oxuyar, onlara bənzər yazılar yazmağa çalışardıq.

Yazıçı-publisist, tədqiqatçı Salatın Əhmədlinin də "Ədəbiyyat və incəsənət" (indiki "Ədəbiyyat") qəzetində, "Azərbaycan" jurnalında dərc olunan müxtəlif adda nəsr əsərlərini və bədii publisistik yazılarını dağ kəndində tanımışıq və bu imzalı yazıları böyük maraqla, sevə-sevə oxumuşuq. Bir də Salatın xanımın imzası ona görə bizim üçün doğma idi ki, şəxsiyyətinə dərin hörmət bəslədiyimiz, qələm sahiblərinin yaxın dostu, Naxçıvan Muxtar Respublikasının Şahbuz bölgəsindən olan şair təbiətli Tağı Məhəmməd oğlu Əhmədovun ömür-gün yoldaşıdı.

"Salatın Əhmədlinin bədii publisistikası" zəngin fakt və materiallar əsasında yazılan monoqrafiya gərgin axtarışın, zəhmət və istedadlı qələmin ərsəyə gətirdiyi sənət əsəridir.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun 10 sentyabr 2019-cu il tarixli 7 saylı iclasının qərarı ilə "Salatın Əhmədlinin bədii publisistikası" adlı monoqrafiyanın nəşri qərara alınır. Kitab N. Gəncəvi adına Ədəbiyyat İnstitunun "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Vüqar Əhməd tərəfindən yazılmışdır.

"Salatın Əhmədlinin bədii publisistikası" monoqrafiyası iki bölmədən ibarətdir. Birinci hissə "Azərbaycan publisistikasında Salatın Əhmədlinin yeri və mövqeyi" adlanır. Kitabda professor Vüqar Əhməd publisistikanın sosial ədəbiyyat olaraq ədəbiyyatın ən aktiv sahəsi olduğu kimi, həm də olduqca çətin bir janr olduğunu qeyd edir. Və müəllif oxucuya bu janrın geniş izahını verir: ... Publisistika ədəbiyyatın aktiv janrıdır... Publisistika latın sözü olub "ictimai" deməkdir. Publisistika termini XIX əsrdə yaranmış və uzun müddət sosial ədəbiyyat mənasında işlənmişdir... Publisistikanın məqsədi həyatı əks etdirmək, tədqiq etmək, onun haqqında kütləvi düşündürmək, inandıracaq formada danışmaqdır.

Müəllif qeyd edir ki, Mövlanə Fizulinin "Şikayətnamə" sindən başlayaraq Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, onun əsasını qoyduğu ilk anadilli mətbuatımız olan "Əkinçi" qəzeti, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad və başqa tanınmış ədiblərin yaradıcılığında publisistika janrından istifadə olunması müşahidə edilir. Bu janr öz populyarlığını qoruyub saxlamış, bu gün də istifadə olunmaqdadır. Kitabda qısa da olsa Salatın xanım Əhmədlinin həyatı haqqında məlumat verilir.

Odlar Yurdu Azərbaycanın Ağstafa rayonunun Poylu qəsəbəsində dünyaya göz açan, Azərbaycan Dövlət Universitetində (indiki BDU) ali təhsil alan, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının müdiri vəzifəsində çalışan Salatın Alı qızı Əhmədli öz sələflərinin çətin və şərəfli yolunu davam etdirir. Azərbaycan ədəbiyyatını öz bədii publisistik yazıları, hekayə və povestləri ilə zənginləşdirən Salatın xanım Əhmədli hər bir əsərini zərgər dəqiqliyi ilə yazır, oxucusuna təqdim edir.

Professor Vüqar Əhməd öz müşahidəsinə və axtarışlarına əsaslanaraq kitabın əvvəlində Salatın xanımı oxucuya necə varsa elə də təqdim edir: "Salatın Əhmədli də bir həqiqət carçısıdır. O, nə yazır, yazsın, kimdən, nədən, haradan yazır yazsın, yalnız həqiqəti yazır. Onun yazılarında zərrə qədər də yalan yoxdur. Yaradıcılığı da varlığı kimi pak, təmiz və ülvidir".

Monoqrafiyanı oxuduqca qarşımızda geniş, rəngarəng sənət mənzərəsi açılır. Otuzdan çox nəzm, nəsr və publisistik yazıların müəllifi olan Salatın xanımın bir çox kitabları rus, ingilis, türk ləhcəsinə uyğunlaşdırılaraq 55 ölkədə yayımlanmışdır. Salatın xanımın "Səfərnamə" adlı kitabı haqqında akademik Budaq Budaqov, Xalq Yazıçısı Çingiz Abdullayev, "Xalq Şairi Nəriman Həsənzadəyə Poylu beşiyindən məktub" ədəbi-publisistik kitabı haqqında şair-publisist, "Kredo" qəzetinin baş redaktoru, Beynəlxalq Rəsul Rza mükafatı laureatı Əli Rza Xələfli, "Başdaşı əhvalatı" kitabı haqqında şairə, ədəbiyyatşünas Gülxani Pənah və başqaları öz fikirlərini söyləmişlər. "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlının da Salatın xanımın publisistik yaradıcılığı haqqındakı səmimi hisslərdən yaranmış fikirləri oxucuya təqdim olunmuşdur.

Ədibin "Hüseyn Cavidin ev muzeyi", "Sənsiz", "Soykökümüz, milli-mənəvi mədəniyyətimiz, tariximiz", "Böyük ömrün salnaməsi", "Azərbaycan poeziya çələngi", "Heydər Əliyevin dil siyasəti", "Heydər Əliyev və ədəbiyyat tarixi prosesi" kimi monoqrafiyaları və digər elmi-publisist əsərləri haqqında da tanınmış şəxsiyyətlər tərəfindən yüksək fikirlər söylənilmişdir.

"Salatın Əhmədlinin bədii publisistikası" monoqrafiyasında oxucuların diqqətinə çatdırılır ki, S. Əhmədli 2010-cu ildə dahi şəxsiyyət, ümumilli lider Heydər Əliyev haqqında "Heydər Əliyevin dil siyasəti" mövzusunda müdafiə etdiyi dissertasiya işinə görə o, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Ümumiyyətlə, ədibin yaradıcılığında Ulu Öndərə böyük məhəbbət hissləri geniş şəkildə öz əksini tapmışdır.



Tanınmış yazıçı Zahid Xəlil yazırdı: "Onun (Salatın Əhmədovanın) "Heydər Əliyev və dil siyasəti" kitabı, əslində ana dilimizin hüdudlarını genişləndirən, çərçivələrini darmadağın edən bir insanın - vətəndaşın ürəyinin səsi, harayıdır".

S.Əhmədlinin "Heydər Əliyev və ədəbi proses" adlı monoqrafiyası dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycanın memarı, böyük mütəfəkkir H.Ə.Əliyevin nəzəri irsinə həsr olunmuşdur.

Kitabın ikinci hissəsi "Salatın Əhmədlinin publisistikasında milli tarixi yaddaş, dil-ədəbiyyat və sənət məsələləri" adlanır. Bu bölmədə yazıçının "Bir elatın dastanı" və "Yol gedir Naxçıvana" kitabları və bu əsərləri qələmə alarkən bədii publisistikanın imkanlarından məharətlə istifadə etməsi, tariximizə, mənəviyyatımıza, mədəniyyətimizə, milli və dini dəyərlərimizə, adət və ənənələrimizə, folklorumuza məhəbbət hisslərinin hərtərəfli tərənnüm olunmasından söz açılır. Ermənilərin Naxçıvanda insanlığa sığmayan vəhşiliklər törətdikləri qətliamlar faktlarla əsaslandırılır. Kökümüz, əcdadımız, dinimiz, dilimiz bir olan Anadolu türklərinin nə qədər rəşadətli olduğu, Naxçıvan əhlinin, Naxçıvanlı kişilərin nə qədər qorxmaz, cəsur və şücaətli, nə qədər işıqlı iman sahibi olduğu öz əksini tapır.

"Salatın Əhmədlinin bədii publisistikası" monoqrafiyasındakı "Anamın yuxusu" sənədli hekayəsi haqqındakı şərhləri oxuduqda özünü nə qədər ələ alsan da, kövrəlməmək olmur. O, ananın təzadlı həyatını, müharibənin ağır, əzablı, sarsıntılı, vahiməli sınaqlarını öz hekayəsində təsvir edir. Ananın iyirmi beş yaşlı oğlu, pəhləvan cüssəli Musanın dünyasını dəyişməsi, nəvəsi İsanın Qarabağ müharibəsində şəhid olması, şəhidin - qəlbinin meyvəsi qopmuş, ruhu təlatümlərə, fırtınalara qarışmış atası Yunisin şam kimi əriyib sönməsi, bütün itirdiklərinin yanına tələsən Ananın çəkdiyi iztirabları bir hekayədə cəmləşdirmək qələm sahibindən böyük ürək, güclü duyum, səbr və istedad tələb edir. Belə bir missiyanı bu hadisələri görən və yaşayan Salatın xanımın qələmi yerinə yetirə bilərdi...

Kitabdakı diqqəti cəlb edən cəhətlərdən biri də Salatın xanımın bədii publisistikasında Azərbaycan ədəbiyyatına, tarixinə, ayrı-ayrı elmi sahələrinə olduğu kimi, incəsənətə və mədəniyyətə münasibətidir. Azərbaycan kinosunda, teatrında, aktyor sənətində olan uğurları qeyd etməklə, qüsurların da olduğunu göstərən S. Əhmədli tamaşaçıları güldürmək üçün dilimizi eybəcərləşdirənlərə qarşı öz qələmi ilə mübarizə aparır. Ə. Əmirlinin "İtmiş ər" tamaşasından söz açaraq Azərbaycan xalqına xas olmayan hərəkətlər və danışıqlar etdiklərinə görə tanınmış məşhur artistləri haqlı olaraq tənqid edir, onları dilimizi korlamamağa, adət və ənənələrimizi qorumağa dəvət edir. "Bəxt üzüyü" filmindəki insan sinirlərinə toxunan kəlmələrin yolverilməz olduğunu diqqətə çatdırır.

Professor Vüqar Əhmədli öz axtarışlarında tam qənaətə gəlir ki, Salatın Əhmədova əsl publisistdir. Onun publisistikası ayrı-ayrı istiqamətlərə xanələnib. Bütöv yaradıcılığı, bədii irsi, hər bir kitabı xalqa bir töhfədir. Bu töhfələrdən biri də xalqımızın dəyərli insanlarına, ziyalılarına, alimlərinə, yüksək ixtisas sahiblərinə, elm xadimlərinə, o cümlədən şair və yazıçılarına böyük diqqət yetirməsidir.

Xalq yazıçısı İsmayıl Şıxlı haqqında yazdığı "Dünya sənin, dünya mənim, dünya heç kimin" adlı məqaləsi geniş şərhini tapmış, "İsmayıl Şıxlı kimdir?" sualı geniş mənada açıqlanmışdır.

Görkəmli folklorşünas alim, jurnalist, tədqiqatçı Rüstəm Rüstəmzadəyə həsr etdiyi və "Ocaq" qəzetinin 2 aprel 2010-cu il sayında dərc etdirdiyi məqaləsində onu "Folklorumuzun yorulmaz fədaisi" adlandırır və onun doğum tarixinə, həyatına bir ekskursiya edir. Azərbaycan teatrına, kinosuna, aktyorlarına səmimi münasibət bəsləyən Salatın xanım Əhmədlinin sevimli aktyorumuz Tarıyel Qasımovun 80 illiyi ilə əlaqədar 11 aprel 2009-cu il tarixli "Kredo" qəzetindəki "Sənət yolunda keçən ömür" məqaləsi bədii publisistikanın ən gözəl nümunəsi hesab etmək olar.

Biz monoqrafiyada Salatın xanımın Azərbaycanın ləyaqətli bir ziyalısı kimi öz yaradıcılığında gənc qələm sahiblərinə də geniş yer verdiyinin şahidi oluruq. O, gənc şairə Pərvanə Nizaməddin qızının poeziyası haqqında söz söyləmiş, onun yaradıcılığını təhlil etmişdir. "Könüllərə yol açan körpü" adlı məqaləsində Fəridə Ləmanın xalqa, millətə çox lazım olan yaradıcılığına, kamil şəxsiyyətinə, ləyaqətinə, əqidəsinə, cəsarətinə, insanlığına güzgü tutmasını görürük. S.Əhmədlinin publisistikasında uşaq dünyası, bu dünyanı yaradanlar və zənginləşdirənlər xüsusi yer tutur. Əsrdə uşaqların qəlbini ovundurmağı bacaran, nağıllar ustası Zahid Xəlilin də haqqında "Zahid Xəlilin nağıl dünyası" adlı məqaləsində geniş məlumatlar verilmişdir.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

Salatın xanım "Qəribə talelər" adlı publisistik məqaləsində şairə Mətanət Mətinin "Arzu qanadları" kitabında anası haqqındakı şeirə xüsusi diqqət göstərərək, həmin şeiri hərtərəfli təhlil etmişdir. Bu kimi nümunələrə kitabda çox rast gəlmək olar.

**Son söz əvəzi:** "Salatın Əhmədlinin bədii publisistikası" monoqrafiyası haqqındakı fikirlərimizi Vüqar Əhmədin öz sözləri ilə bitiririk.

Filologiya elmləri doktoru, professor Vüqar Əhmədin həm də istedadlı bir şair kimi qələmə aldığı " Salatın Əhmədlinin bədii publisistikası" monoqrafiyasını bir tədqiqat əsərindən çox bədii kitab kimi oxudum. Və mən özüm otuzadək şeir, nəsr və publisist kitabların müəllifi olaraq qələminə və yaradıcılığına dərin məhəbbət bəslədiyim Vüqar Əhmədi belə bir əsər ərsəyə gətirdiyi üçün onu təbrik edir, yaradıcılıq uğurları arzulayıram. Əsər haqqında öz qeydlərimi Vüqar Əhmədin sözləri ilə bitirmək istəyirəm: "Salatın Əhmədli doğma Azərbaycanımızı göz bəbəyi kimi sevən, onun şöhrətini ucaltmağa çalışan bir millətsevər qadındır. Salatın xanımın insani keyfiyyətlərindən, yaradıcılıq xüsusiyyətlərindən günlərlə danışmaq olar. Xeyriyyəçilik, səxavət, sadəlik, səmimiyyət Salatın xanımın qanında, ruhundadır.

Bütün gücünü, istedadını Vətənin işıqlı sabahına, ədəbiyyatına, mədəniyyətinin inkşafına həsr edən alim-yazıçı-publisist Salatın xanım Əhmədliyə Uca Allahdan can sağlığı və uzun ömür arzulayırıq:

Sənət yolun bənzərsiz bir xəzinə,
Hamı heyran sənin dəsti-xəttinə,
Yaz-yarat ey bacım, yaz-yarat yenə,
Yaz ki, ömrümüzə gəlsin gerçəklər,
Müstəcəb olunsun hər cür istəklər".

***18.12.2019*.**



***İbrahim YUSİFOĞLU,***
***şair-publisist,***
***Prezident mükafatçısı,***
***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun əməkdaşı***